**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№308/7** **22 fevral 2019-cu il**

**“Yeni fəaliyyətə başlayan auditorlara əməli köməkliyin göstərilməsinə dair proqramın hazırlanması” barədə**

Palatanın 2019-cu il üzrə iş planının 1.2.5-ci “Yeni fəaliyyətə başlayan auditorlara əməli köməkliyin göstərilməsinə dair proqramın hazırlanması” bəndinə uyğun olaraq Auditin təşkili, hesabatlılıq və təhlil şöbəsi (S.Gülməmmədov) və Hüquqi təminat və standartlaşdırma idarəsi (E.İbrahimov) tərəfindən hazırlanmış Proqramın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Şurada üzvlərinin irad və təklifləri nəzərə alınmaqla “Yeni fəaliyyətə başlayan auditorlara əməli köməkliyin göstərilməsinə dair Proqram” təsdiq edilsin (əlavə olunur).
2. Auditin təşkili, hesabatlılıq və təhlil şöbəsinə (S.Gülməmmədov) tapşırılsın ki, təsdiq olunmuş Proqrama müvafiq olaraq yeni fəaliyyətə başlamış sərbəst auditorlara və auditor təşkilatlarına əməli köməkliyin göstərilməsini təmin etsin.
3. Auditorlar Palatası Şurasının 2010-cu il 18 iyun tarixli 209/3 nömrəli qərarı ilə təsdiq edilmiş “Yeni fəaliyyətə başlayan auditorlara əməli köməkliyin göstərilməsinə dair Proqram” qüvvədən düşmüş hesab edilsin.
4. Bu qərarın və Proqramın mətnlərinin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Palata sədrinin müavini** **Fəxrəddin İsmayılov**